AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ 1930

**Təsdiq edirəm** ___________________________

**“Maliyyə və audit”** kafedrasının müdiri
i.e.d., prof.Əvəz Ələkbərov
*11 fevral 2025-ci il*

**“Korporativ maliyyə” fənni üzrə işçi tədris proqramı**

(Sillabus)

| | |
|---|---|
| **I.Fənn haqqinda məlumat** | 00503 |
| Fənnin kodu: | 00503 |
| Fənnin növü: | Əsas |
| Tədris ili: | 2024/2025 |
| Fənnin tədris semestri: | Yaz |
| Fakultə | Maliyyə və mühasibat |
| Qrup | 600,602,604,606,608,610,612,614,616,618 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü | 30/30 |
| Kredit sayi | 6 |
| **II.müəllim haqqında məlumat** | |
| Fənni tədris edən müəllim: | *Ülkər Qaraxanova Tofiq* |
| E-mail ünvani | Quluzadə Esmira Məmməd |
| İş telefonu: | garakhanovaulkar@gmail.com 0(12)4924004 |
| **Tələbələr üçün qəbul vaxtlari** | I günlər |

**III. Fənnin təsviri**

Bu fənnin tədrisi korporativ kapital qiymətləndirilməsinin əsas modellərini, o cümlədən ilkin maliyyə aktivlərinin qiymət modellərini, real aktivlərin qiymətləndirilməsi və investisiya layihələrinin təhlilini, kapital strukturunu və istifadə olunan müxtəlif korporativ kapital növlərini, törəmə maliyyə alətlərini və aktivlər üzrə şərti tələbləri əhatə edir. Müxtəlif idarəetmə qərarlarının korporativ fəaliyyət və dəyərə olan təsirin qiymətləndirilməsi üzrə zəruri biliklərlə təmin edir.

**IV. Fənnin məqsədi**

Kursun əsas məqsədi korporativ dəyərin yaranması nöqteyi-nəzərindən korporativ maliyyə təhlili üçün konseptual zəmin yaratmaqdır. Kurs bazar mühitində müasir şirkətin əsas maliyyə problemlərini anlamaq və təhlil etmək üçün nəzəri bir çərçivə formalaşdırır. Kurs korporativ kapital qiymətləndirilməsinin əsas modellərini, o cümlədən ilkin maliyyə aktivlərinin qiymət modellərini, real aktivlərin qiymətləndirilməsi və investisiya layihələrinin təhlilini, kapital strukturunu və istifadə olunan müxtəlif korporativ kapital növlərini, törəmə maliyyə alətlərini və aktivlər üzrə şərti tələbləri əhatə edir. Kurs kapital bazarlarında korporativ davranışı, maliyyələşdirmə, kapital ayırma, gəlirləri bölüşdürmə məsələsində işçi və müdir arasındakı münasibətləri təhlil etmək bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir.

**Fənnin vəzifələri:**

- Korporativ maliyyənin nəzəri və praktiki tərəfini
- Korporativ investisiyaları etmək üçün analitik bacarıqları inkişaf etdirmək
- Bugünkü mürəkkəb qlobal iqtisadiyyatı formalaşdıran korporativ maliyyənin modellərini anlamaq

**V. Fənnin təlim nəticələri:**

**Bilməlidir:**

- Şirkətlər real aktivlərə necə investisiya etdiklərini
- İnvestisiyaları etmək üçün vəsaiti hardan əldə etdiklərini
- Aktivlərin sonunda firmanın dəyərinə necə təsir etdiklərini

**Bacarmalıdırlar:**

- Korporasiyanın dəyərləndirməsi
- Hesabat göstəricilərindən korporasiyanın gələcək fəaliyyətini proqnozlaşdırılması
- Ən sərfəli investisiya layihəsini müəyyən edilməsi.

**VI. Fənnin mühazirə mövzuları**

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1) Korporasiyanın məqsədi və idarə olunması. Maliyyə bazarları və insitutları.
2) Mühasibatlıq ilə maliyyənin əlaqəsi. Korporativ fəaliyyətin dəyərləndirilməsi.
3) Pulun zaman dəyəri
4) İstiqrazların dəyərləndirilməsi
5) Səhmlərin dəyərləndirilməsi
6) Xalis cari dəyər və digər investisiya kriteriyaları
7) İnvestisiya qərarını vermək üçün diskontlaşdırılmış nağd pul axını analizi
8) Layihə analizi
9) Risk, Gəlir və kapitalın alternativ xərcinə giriş
10) Risk, Gəlir, Yatırım planlaşdırılması
11) Kapitalın orta çəkili xərci
12) Korporasiyanın maliyyələşdirilməsi
13) Borc Siyasəti
14) Dividend Siyasəti

## VII. Prerekvizitlər

Ekonomiksın əsasları, Mühasibat uçotu, İdarəetmə uçotu.

## VIII. Fənnin tədris metodologiyası

Məsələn: *Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.*

## IX. Əsas dərslik və ədəbiyyat

Burada fənnin tədris olunacağı əsas dərsliyin (dərsliklərin) yaxud dərs vəsaitinin adı, müəllifi, çap olunduğu yeri və ili, səhifəsinin sayı və s. məlumatlar göstərilir.
*Məsələn:*

1. *"Fundamentals of Corporate Finance" Ross, Westfield, Jordan*
2. *"Pul, bank və* maliyyə bazarlarının iqtisadiyyatı" Frederik S. Mişkin
3. *"Fundamentals of Corporate Finance"Brealey, Myers, Marcus.*

*Hər bir mövzu üzrə əlavə ədəbiyyat mühazirə zamanı təqdim edilə bilər.*

## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Korporasiyanın məqsədi və idarə olunması**<br>**Maliyyə bazarları və insitutları** | Fənnin predmeti, mahiyyəti və öyrənilməsinin zəruriliyi.<br>Biznes və sahibkarlıq. Biznesdə mühit amilləri.<br>Korporasiyalarda korporativ idarəetmə və onun istiqamətləri.<br>Maliyyə anlayışı və təşkilatlarda maliyyə menecmenti.<br>Agentlik Problemi. Korporativ idarəetmə.<br>Maliyyə bazarları və institutlarının yığım fondunun korporativ investisiyalara yönəldilməsinin istiqamətləri. | *Müəllimin fərdi materialı* |
| 2 | **Mühasibatlıq ilə maliyyənin əlaqəsi**<br>**Korporativ fəaliyyətin dəyərləndirilməsi** | Maliyyə hesabatları, maliyyə hesabatlarının tərkibi və onların təqdim olunması. Balans hesabatı.<br>Mənfəət və Zərər hesabatı.<br>Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.<br>Bazar dəyəri ilə balans dəyərinin | *Müəllimin fərdi materialı* |

| | | | |
|---|---|---|---|
| | | fərqləndirilməsi. Bazar dəyəri ilə balans dəyərinin fərqləndirilməsi. Nağd pulun gəlirdən fərqli olmasının izahı.<br>Korporativ maliyyə təhlili. Bir şirkətin maliyyə vəziyyətinin rəqibləri ilə və əvvəlki illərdəki mövqeyi ilə müqayisə edilməsi. | |
| **3** | **Pulun zaman dəyəri** | Müəyyən faiz dərəcəsi ilə investisiya olunan pulun zaman dəyərini tapmaq. Gələcək ödənişin cari dəyərini tapmaq. Fərqli zaman aralığında göstərilən faiz dərəcələrini müqayisə etmək - məsələn, aylıq illik nisbətlə. Real və nominal pul axınları ilə real və nominal faiz dərəcələrinin arasındakı fərqi anlamaq. İnflyasiyanın zaman dəyərinə təsiri.<br>Pul vəsaitlərinin gələcək və cari dəyəri. Pul vəsaitləri üzrə faizlər. | *Müəllimin fərdi materialı* |
| **4** | **İstiqrazların dəyərləndirilməsi** | Korporativ istiqrazlar və onların iqtisadi məzmunu. İstiqrazların növləri. İstiqrazların emissiyası. İstiqrazların gəlirliliyi.<br>Korporativ istiqrazların qiymətləndirilməsi. İstiqrazlar üzrə faiz riskləri. Faiz dərəcələri və istiqrazların qiymətləri arasında əlaqə. Kupon dərəcəsinin hesablanması. Kuponlu və kuponsuz istiqrazların qiymətləndirilməsi | *Müəllimin fərdi materialı* |
| **5** | **Səhmlərin dəyərləndirilməsi** | Korporasiyalar vençur kapitalını necə artırır və yeni səhmləri necə emissiya edir. Dividend diskont Modeli. Qiymətləndirmə modellərinin bütün biznesə tətbiqi.<br>Səhmlərin iqtisadi məzmunu, onların təsnifatı. Səhmlərin dəyərləndirilməsi.<br>Adi və imtiyazlı səhmlərin dəyərləndirilməsi.<br>Korporasiyada dividendlər və onların məznunu haqqında anlayış.<br>Səhmdarlara ödəniş formaları: dividendlər və səhmlərin geri alışı.<br>CAPM (kapital aktivinin qiymətləndirmə modeli) | *Müəllimin fərdi materialı* |
| **6** | **Xalis cari dəyər (NPV) və digər investisiya kriteriyaları** | İnvestisiya qoyuluşları barədə qərarların qəbulu. Xalis cari dəyərin hesablanması. Xalis cari dəyər əsasında investisiya qərarlarının qəbulu. Daxili Mənfəət Dərəcəsi metodu. Rentabillik indeksi. İnvestisiya layihələrinin xərcinin ödənilməsi müddəti. | *Müəllimin fərdi materialı* |

| | | | |
|---|---|---|---|
| 7 | **İnvestisiya qərarını vermək üçün diskontlaşdırılmış nağd pul axını analizi** | Standard maliyyə hesabatlarından nağd pul axınlarını hesablamaq. Dövriyyə kapitalında dəyişikliklərin layihənin nağd pul axınına təsiri.<br>İnvestisiya prosesi haqqında ümumi məlumat.<br>İnvestisiya layihələri.<br>Yeni layihə üçün nağd pul axınını müəyyənləşdirmək.<br>Dövriyyə kapitalında dəyişikliklərin layihənin nağd pul axınına təsiri. | *Müəllimin fərdi materialı* |
| 8 | **Layihə analizi** | Kapital qoyuluşlarının effektivliyinin təhlilinin əsasları.<br>Həssaslıq, ssenari və zərərsizlik analizi təhlili metodlarından istifadə edərək səhv proqnoz edilən halda layihənin gəlirliyinə necə təsir edilməsi. Kapitalın yerləşdirilməsində idarəetmə elastikliyinin vacibliyi. | *Müəllimin fərdi materialı* |
| 9 | **Risk, Gəlir və kapitalın alternativ xərcinə giriş** | İnvestisiya layihələrinin riskliliyi.<br>Risklərin proqnozlaşdırılması. İnvestisiya layihələri üzrə risklərin müəyyən olunması və risklərinin qiymətləndirilməsi.<br>"Orta riskli" layihələrdə alternativ xərcin hesablanması.<br>Riskin divesifikasiyası<br>Spesifik risklə bazar riskinin fərqi. | *Müəllimin fərdi materialı* |
| 10 | **Risk, Gəlir, İnvestisiya planlaşdırılması** | Qiymətli kağızların bazar riski və «Beta» anlayışı və qiymətli kağızlar bazarı xətti, beta əmsalının hesablanması. Qiymətli kağızın bazar riskini investorların tələb etdiyi gəlir dərəcəsi ilə əlaqələndirmək. Layihənin riski niyə və necə kapitalın alternativ xərcini müəyyənləşdirir. | *Müəllimin fərdi materialı* |
| 11 | **Kapitalın orta çəkili xərci** | Kapitalın orta çəkili xərclərinin hesablanması<br>Diskont faizinin kapitalın orta çəkili xərcinin hesablanmasında rolu.<br>İnvestisiyaların orta mənfəət norması.<br>Kapitalın optimal strukturu və likvidliyin təhlili. | *Müəllimin fərdi materialı* |
| 12 | **Korporasiyanın maliyyələşdirilməsi. Törəmə qiymətli kağızların təsviri və qiymətləndirilməsi.** | Menecerlərin hansı səbəbdən emissiya etdikləri qiymətli kağızların ədalətli qiymətə olduğunu düşünülməsinin izahı.<br>Maliyyə hesabatlarında səhmdarların kapitalının hesablarının interpretasiyası.<br>İdarə heyətinin seçilmə prosedurunun izahı. | *Müəllimin fərdi materialı* |
| 13 | **Borc siyasəti** | Leverec və onun mahiyyəti. | |

| | | | |
|---|---|---|---|
| | | Leverecin formaları və assimmetrik informasiyalar. İdeal kapital bazarında kapital strukturunun firmanın dəyərinə təsiri. Şirkətin kapital strukturunu müəyyən edən amillərin dəqiqləşdirilməsi. | *Müəllimin fərdi materialı* |
| **14** | **Dividend siyasəti** | Dividendlərin necə ödədildiyini və səhmlərin yenidən geri alındığının izahı. Firmanın ömrü zamanı dividend siyasətinin dəyişilməsinin izahı və investorlara olan təsirinin analizı. Modigliani-Miller dividend siyasəti haqqında nəzəriyyəsi. | *Müəllimin fərdi materialı* |
| | **Yekun imtahan** | | |

## III. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal: 5 bal
- 9 bal: 4,5 bal
- 8 bal: 4 bal
- 7 bal: 3,5 bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4 bal: 2 bal
- 3 bal: 1,5 bal

- 2 bal: 1 bal
- 1 bal: 0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bl +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;

b - seminar dərslərində alınan müxtəlif ballar

s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman

müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

## IV. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## V. Fənn üzrə ara və aralıq qiymətləndirmə

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbəyə qiymətləndirmədə veriləcək sualların siyahısı

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” - F
51-60 bal - “qənaətbəxş” - E
61-70 bal - “kafi” - D
71-80 bal - “yaxşı” - C
81-90 bal - “çox yaxşı” - B
91-100 bal - “əla” - A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.